

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 48-49 (7453-7454) ❖ 1933-cü ildən nəşr olunur ❖ Çərşənbə, 1 noyabr 2017-ci il. ❖ Qiyməti 40 qəpik

## Prezident İLHAM ƏLİYEV: Bu yol sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək.

*Bakı-Tbilisi-Qars dəmir yolu tarixi layihədir, strateji əhəmiyyətli layihədir. Bu yolun uzunluğu təxminən 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən keçir. Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Bir sözlə, Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək.*

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

**30 oktyabr**

Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimi olub. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında keçirilən təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Qazaxıstan Respublikasının Baş naziri Bakıtjan Saqintayev, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, həmçinin Tacikistan və Türkmənistan respublikalarından nümayəndə heyətləri mərasimdə iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində nitq söyləyib.

**28 oktyabr**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Səbail rayonunda yeni salınmış idman və istirahət parkında yaradılan şəraitlə tanış olub.

Ölkə başçısına məlumat verilib ki, rayonda aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri, həyata keçirilən layihələr və sosial proqramlar çərçivəsində bu ilin may ayından 20-ci yaşayış sahəsindəki Su İdmanı Sarayı ilə üzbəüz 1,7 hektarlıq ərazidə yeni idman və istirahət parkının salınmasına başlanıb və artıq işlər başa çatdırılıb. Parkın layihəsi dünya şöhrətli memar və dizaynerlər tərəfindən ingilis layihəsi əsasında hazırlanıb və Azərbaycanda ilk dəfə olaraq həyata keçirilib. Xüsusi layihə çərçivəsində görülən işlər yüksək keyfiyyətlə və zövqlə yerinə yetirilib.

**27 oktyabr**

Prezident İlham Əliyev İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, hökumətlərarası komissiyanın həmsədri Məsud Kərbasianın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə ölkələrimiz arasında iqtisadi, ticarət, nəqliyyat, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi, səhiyyə, kənd təsərrüfatı, bank, maliyyə sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark İnnes-Braunun etimadnaməsini qəbul edib.

Prezident İlham Əliyev Qvatemala Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Lars Henrik Pira Perezin etimadnaməsini qəbul edib.

**20 oktyabr**

İstanbulda İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) "Əməkdaşlıq yolu ilə imkanları artırmaq" devizi altında IX Zirvə görüşü keçirilib.

Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə xüsusi qonaq qismində Zirvə görüşündə iştirak edib.

**19 oktyabr**

Prezident İlham Əliyev İstanbula səfəri çərçivəsində İran İslam Respublikasının Birinci vitse-prezidenti Eshaq Cahangiri ilə görüşüb.

Görüşdə Prezident İlham Əliyev ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirib, siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu vurğulayıb.

## Davamlı inkişafa xidmət edən strategiya



Bəşər tarixində bütün xalqlar üçün ən böyük milli sərvət kimi dəyərləndirilən müstəqillik siyasi, iqtisadi, sosial, mədəni və digər vacib sahələr ümumi inkişafın istiqamət və mahiyyətini müəyyən edən önəmli faktordur.

Eyni zamanda özünəməxsus səciyyəvi cəhətləri ilə seçilən inkişafın Azərbaycan modeli zamanın çağırışlarına adekvat olan yeni inkişaf yolu ölkəmizin milli maraqları, potensial imkanları, geosiyasi reallıqları, qloballaşmanın diktə etdiyi şərtləri nəzərə alınmaqla müəyyən edilmişdir.

Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasının kifayət qədər böyük uzaqgörənliklə düşünüldüyü, hələ neçə-neçə onilliklər ərzində ölkənin tərəqqisinə xidmət edən lokomotiv rolunu oynayacağı özünü aydın surətdə göstərməkdədir.

Ölkənin iqtisadi bazisinə əsaslanan və uğurla reallaşdırılan sosial siyasət mükəmməl xarakter daşımaqla qabaqcıl dünya təcrübəsinə söykənir.

Ümummilli liderin siyasi strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın kompleks tərəqqisinin yeni mərhələsi başlanmışdır. Ölkə başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması və bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir.

Qeyri-neft sektorunun daha da möhkəmlənməsi, iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılması, infrastrukturun yeniləşdirilməsi təmin edilmişdir.

Yaradılan yeni istehsal sahələri, xüsusilə də sənaye və kənd təsərrüfatı qeyri-neft sektorunun sıçrayışlı yüksəlişi ilə müşayiət olunmaqdadır.

İnsan kapitalının inkişafı, sosialyönümlü siyasətin həmişəki kimi prioritet istiqamət təşkil etməsi, çoxşaxəli milli iqtisadiyyatın formalaşdırılması prosesinin davamlı xarakteri, həyata keçirilən modernləşmə siyasəti və bu qəbildən olan digər hallar Azərbaycana bundan sonra da böyük nailiyyətlər qazandıracaq. Bu, ulu öndər Heydər Əliyev siyasi kursunun və cənab İlham Əliyev missiyasının, eyni zamanda Azərbaycan xalqının şərəfli siyasi irsə sonsuz etimadının növbəti təzahürləridir.

**"Qəbələ"**

## Xalq tərəfindən dəstəklənən qüdrətli siyasi qüvvə

### Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının IX konfransı keçirilib

Konfrans iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Sonra "Qafqaz-Resort" otelinin iclas zalında davam edən plenar iclasda Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, YAP Mərkəzi Aparatının məsul işçisi Emil Abbasov iştirak ediblər.

Konfransda partiyanın yaradıcısı, ümummilli lider Heydər Əliyevin və vəfat etmiş partiya üzvlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

(Ardı 2-ci səhifədə).